# Fransanın əsl siması dünya ictimaiyyətinə bəllidir

Fransa prezidenti Emmanuel Makronun ölkəmizə qarşı emosional davranışlarının, siyasi-diplomatik etikadan kənar qərəzli münasibətinin də əsas səbəbi heç də geosiyasi intriqaların təşəbbüskarı və xırda oyunçu olan Ermənistanın məğlubiyyəti yox, Fransanın indiyədək apardığı Cənubi Qafqaz siyasətinin dalana dirənməsidir. Problemin həllində ikiüzlü siyasət yeridən bu ölkənin ifşa olunmasıdır.

Məğlubiyyətini həzm edə bilməyən Paris nəzarətində olan yedək beynəlxalq təşkilatlar vasitəsi ilə avantürist anti-Azərbaycan siyasətini bu gün daha qərəzli surətdə davam etdirir.

→ 6

# Fransanın əsl siması dünya ictimaiyyətinə bəllidir

**Azərbaycanla Ermənistan arasında münasibətləri gərginləşdirən də, xalqlar arasında düşmənçilik toxumu səpib münaqişəni alovlandıran da, yaranmış problemin ilk günlərindən öz qlobal siyasi məqsədləri üçün istifadə edən də Fransa olub. Müəyyən istisnalar olmaqla problemin həllində vasitəçilik edən bu dövlətin prezidentlərinin həmişə ölkəmizə qarşı qərəzli, haqsız münasibətlərinin şahidi olmuşuq.**

Fransanın Cənubi Qafqazda qüdrətli bir müsəlman dövlətinin olmasını həzm edə bilməməsi aydın məsələdir. Amma Parisin Cənubi Qafqazda müharibə ocağını közrükləməkdə əsas məqsədi bundan istifadə edib Ermənistanı daim özündən asılı vəziyyətdə saxlamaq, özlərini ermənilərin dostu və müdafiəçisi kimi göstərib erməni lobbisinin maliyyə imkanlarından yararlanmaqdır. Digər bir məsələ isə Türkiyə ilə Azərbaycan arasında bufer zona yaradaraq iki ölkə arasında ən yaxın və əlverişli olan nəqliyyat yolunu bağlayıb hər iki dövlətin iqtisadi gücünün daha da artmasına mane olmaqdır. Bir sözlə, ilk gündən "vasitəçi" kimi özünü göstərən Fransa əslində dağıdıcı siyasət yürüdərək vəziyyəti gərginləşdirməyə çalışıb.

44 günlük İkinci Qarabağ müharibəsinin yaratdığı real gerçəklik budur ki, illərdir regionda münaqişəni qızışdırmaqla məşğul olan Fransa müharibədən sonra oyundan kənar vəziyyətdə qalıb. Belə ki, bu ölkə indiyə qədər apardığı məkrli siyasətin qurbanı olub. Özü qazdığı quyuya düşüb. Cənubi Qafqaza nəzarət arzusunu artıq xəyal da edə bilmir...

Fransa prezidenti Emmanuel Makronun ölkəmizə qarşı emosional davranışlarının, siyasi-diplomatik etikadan kənar qərəzli münasibətinin də əsas səbəbi heç də geosiyasi intriqaların təşəbbüskarı və xırda oyunçu olan Ermənistanın məğlubiyyəti yox, Fransanın indiyədək apardığı Cənubi Qafqaz siyasətinin dalana dirənməsidir. Problemin həllində ikiüzlü siyasət yeridən bu ölkənin ifşa olunmasıdır.

Məğlubiyyətini həzm edə bilməyən Paris nəzarətində olan yedək beynəlxalq təşkilatlar vasitəsi ilə avantürist anti-Azərbaycan siyasətini bu gün daha qərəzli surətdə davam etdirir. Ölkəmizə qarşı aparılan anti-Azərbaycan təbliğatında qərəzin, hikkənin ruporu olan Aİ və AŞPA əslinə qalsa arabanın beşinci təkəri kimi bir funksiyanı yerinə yetirməkdədir. Azərbaycan əleyhinə mübarizədə təkbaşına istədiyinə nail ola bilməyən rəsmi Paris həm də meydanda tək olmadığını isbatlamaq üçün yedək təşkilatlardan olan muzdlularından da istifadə edir. Məqsədinə nail olmaq üçün hücum arealını genişləndirən, beynəlxalq aləmdə daha çox tərəfdarla ölkəmizə hücum görüntüsü yaratmaq niyyəti ilə adı "beynəlxalq" adlanan təşkilatların imkanlarından istifadə etməyə çalışır.

Emmanuel Makron hökumətinin apardığı yanlış, uğursuz siyasətin bu ölkənin beynəlxalq nüfuzuna ciddi zərbə vurduğunu inkar etmək mümkün deyil. Dünyada olan bütün münaqişə ocaqlarında katalizatorluq edib münaqişəni qızışdıran Fransanın əsl siması dünya ictimaiyyətinə bəllidir. XXI əsrdə müstəmləkəçilik siyasətindən əl çəkə bilməyən, öz dövlətinin ərazisində yaşayan xalqların ən adi hüquqlarını kobud surətdə pozan, hətta öz dilində danışmağı qadağan edən bir ölkənin haqdan, ədalətdən dəm vuraraq münaqişə edən tərəflərə vasitəçilk etmək niyyətinə düşməsi yalnız və yalnız istehza doğurur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 3 fevral, № 23.- S.1, 6.